# Həqiqətlərin beynəlxalq aləmə çatdırılmasında əvəzsiz xidmətləri olan Ulu Öndər

**Azərbaycan xalqının milli şüurunun oyanışında və tarixi kimliyinin formalaşmasında 1990-cı ilin 20 Yanvar hadisələri mühüm dönüş nöqtəsi oldu. Bu faciə sovet ordusunun Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna genişmiqyaslı hərbi müdaxilə həyata keçirməsi ilə yadda qaldı. 20 Yanvar hadisələri eyni zamanda, Azərbaycan xalqının azadlıq iradəsini daha da möhkəmləndirdi, müstəqilliyə gedən yolun xəritəsini cızdı.**

20 Yanvar gecəsi sovet ordusunun Bakıya qanlı müdaxiləsi nəticəsində yüzlərlə həmyerlimiz şəhid oldu. Bu faciə xalqımızın milli azadlıq yolunda atdığı ən böyük addımlardan biri idi. Həmin gecə canını fəda edən insanlar Qarabağdakı erməni separatizminə qarşı etiraz səsini ucaltmışdılar.

Faciədən bir gün sonra 1990-cı il yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəldi. Ümummilli lider böyük cəsarət nümayiş etdirərək Sovet rəhbərliyinin törətdiyi bu vəhşiliyi beynəlxalq ictimaiyyətə çatdırmaq üçün dərhal bəyanat verdi. Bu bəyanatda 20 Yanvar qırğınının əsl mahiyyətini açdı, hadisələrin səbəblərini və səbəbkarlarını açıq söylədi. Dahi liderin bu çıxışı ilə Sovet rəhbərliyinin törətdiyi cinayəti dünya ictimaiyyətinə çatdırdı. Ulu öndər bəyanatında belə vurğulamışdı: "Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı. Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır".

Ümummilli lider Azərbaycanda vəziyyətin siyasi tənzimlənmə imkanlarının mövcud olduğunu, lakin onlardan səmərəli istifadə edilmədiyini nəzərə çatdırdı. Nəticədə isə yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə sovet ordusunun, SSRİ DİN qoşunlarının böyük kontingenti yeridilmişdir. Bunun törətdiyi faciələr hamınıza məlumdur.

Bu sözlər bir tərəfdən Sovet rəhbərliyinin məsuliyyətsizliyini açıq şəkildə ittiham edir, digər tərəfdən isə Azərbaycanın milli mənafelərini müdafiə edirdi. Heydər Əliyevin çıxışı həm də SSRİ rəhbərliyinin Azərbaycan xalqına "islam fundamentalisti" damğası vurmaq cəhdlərini ifşa etdi. O, bu ittihamların əsassız olduğunu, Azərbaycanın müstəqillik arzularının demokratik prinsiplərə əsaslandığını bütün dünyaya bəyan etdi.

Heydər Əliyevin bu qətiyyətli mövqeyi SSRİ rəhbərliyini ciddi şəkildə narahat etdi. İki həftə sonra Sovet İttifaqı Kommunist Partiyasının rəsmi orqanı olan "Pravda" qəzetində dərc olunan Heydər Əliyevə qarşı böhtan dolu məqalədə onun çıxışı təxribat kimi qiymətləndirilir, şəxsiyyəti hədəfə alınırdı. Lakin bu təzyiq və təhdidlər onun iradəsini sarsıda bilmədi.

Həmin gün - yanvarın 21-də Heydər Əliyev Azərbaycan xalqının qarşılaşdığı dəhşətli faciə ilə bağlı Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə, Ali Sovetə və Nazirlər Sovetinə teleqram göndərdi. Teleqramda Ulu öndər Bakıya sovet qoşunlarının yeridilməsini və nəticədə günahsız insanların qətlə yetirilməsini böyük kədərlə qarşıladığını ifadə edərək, Azərbaycan xalqına başsağlığı verdi.

Ümummilli lider bu qanlı əməliyyatı antihumanist, antidemokratik və qanunsuz hərəkət olaraq dəyərləndirdi, eyni zamanda xalqı soyuqqanlı, müdrik, həmrəy olmağa səslədi. Heydər Əliyev teleqramın respublika mətbuatında dərc edilməsini, radio və televiziya vasitəsilə yayımlanmasını, eləcə də matəm tədbirlərində xalqa çatdırılmasını tələb etdi. Ulu öndər bu çıxışı ilə baş vermiş faciəni qətiyyətlə pisləməklə kifayətlənmədi, həm də xalqın birliyini və həmrəyliyini gücləndirən bir lider mövqeyi nümayiş etdirdi.

Məlumdur ki, respublika mətbuatı, radio və televiziya Heydər Əliyevin ürək ağrısı ilə yazdığı teleqramı xalqın diqqətinə çatdırmadı. Bu mühüm sənəd yalnız dar çərçivədə, xidməti istifadə üçün nəzərdə tutulmuş şəkildə yayıldı. Mərkəzi mətbuat isə teleqramın məzmununu senzuradan keçirərək təqdim etdi. Bu addım SSRİ rəhbərliyinin Azərbaycanda baş verən faciənin həqiqətlərini gizlətmək cəhdinin bir hissəsi idi. Buna baxmayaraq, bəzi məlumatlar zamanla üzə çıxdı. Məsələn, Rusiyanın "Raboçaya tribuna" qəzetinin arxivində qəzetin Bakıdakı müxbirlərinin yanvar hadisələri ilə bağlı yazdıqları iki məqalə aşkarlandı. Bu yazılarda faciənin əsl mənzərəsi əks etdirilir. Oradakı məlumatlar Bakıya yeridilən qoşunların törətdiyi dəhşətləri və günahsız insanların qətliamını sübut edir.

Beləliklə, Heydər Əliyevin beynəlxalq aləmə çatdırmaq istədiyi həqiqətlər nə qədər gizlədilməyə çalışılsa da, tarix bu faktların üstündən xətt çəkə bilmədi. Ümummilli liderin 20 Yanvar faciəsi ilə bağlı cəsarətli bəyanatı Azərbaycan xalqının səsini beynəlxalq aləmdə eşitdirdi, həm də milli birliyi gücləndirdi. 20 Yanvar faciəsindən sonra xalqımız müstəqillik arzularını daha qətiyyətlə həyata keçirdi.

Ulu öndər siyasi rəhbərliyə qayıtdıqdan sonra 20 Yanvar hadisələrinin xalqımızın yaddaşında əbədi qalması üçün mühüm addımlar atdı. O, 1993-cü ildən etibarən 20 Yanvar faciəsinin dövlət səviyyəsində qeyd olunmasını təmin etdi. Şəhidlərin xatirəsini yaşadan abidələr ucaltdı. Bu addımlar xalqımızın tarixi yaddaşının qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm rol oynadı.

Heydər Əliyevin 20 Yanvar faciəsi ilə bağlı çıxışı Azərbaycan xalqının milli mübarizə tarixində əhəmiyyətli bir səhifədir. Ulu öndərin qətiyyəti sayəsində 20 Yanvar hadisələrinin əsl mahiyyəti dünya ictimaiyyətinə çatdırıldı və bu faciə xalqımızın azadlıq mübarizəsinin simvoluna çevrildi.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**

Respublika .- 2025.- 19 yanvar (№12).- S.5.